Rövşən Aqayev, Səadət Akifqızı
Korrupsiya: Büdcə təkcə üç sahədən 500 milyon dollar itirir
«Avropa» Qəzeti 9-15 avqust 2003

Korrupsionerin milləti olmur

Amma tanınmış iqtisadçılarımızdan birinin dediyi kimi, bunu «Azərbaycan mentalitetinin» ayağına yazmaq böyük xəta olardı. Heç bir xalq korrupsiyadan sığortalanmayıb. Məsələn, almanların dünyanın «əlitəmiz» xalqlarının reytinq cədvəlində lider onluqda qərar tutması yəqin ki, kimsəyə təəccüblü görünməz. Ancaq bu fakta yəqin ki, çoxları təəccüblənəcək: 1996-cü ildə məhz həmin Almaniyanın təkcə dörd iri şəhərində – Münben, Berlin, Frankfurt-Mayn və Hamburq – prokurorluq orqanları 2200 korrupsiya faktı ilə bağlı təhqiqatın nəticələrini məhkəmələrə göndərib. Özü-özlüyündə bunda da qeyri-adi bir şey yoxdu: korrupsionerin və rüşvətxorun milləti olmur.

Hakim siyasi elita avtoritar, cəmiyyətin onu həzm edəmək potensialı rəvan olanda korrupsiya-rüşvət şəbəkəsi məmurdan tutmuş sıravi vətəndaşadək bütün insanların yaşam tərzinə çevrilir. Biri almadan, o biri vermədən yaşaya bilmir. Azərbaycanda olduğu kimi.

Korrupsiyanın anatomiyası

Ölkə ictimaiyyəti Azərbaycanın beynəlxalq təşkilatların sorğularında korrupsiya üzrə ilk yerlərdən birini tutmasını az qala adi bir hal kimi qarşılayır. Korrupsiyanın cəmiyyətə, deməli, ölkənin hər bir vətəndaşına vurduğu zərərin miqyasını hesablamaq və nəticələrini təhlil süzgəcindən keçirmək isə çox vaxt iqtisadçıların «menyusu»ndən o tərəfə keçmir. Halbuki ölkənin sosial-iqtisadi durumunun get-gedə həyatın dibinə enməsində xüsusilə son illərdə genişlənən və az qala hər xırda dükana qədər əl uzadan korrupsiyanın rolu və yeri heç də kiçik deyil. Biz bu yazıda korrupsiya nəticəsində cəmiyyətin nə qədər və nəyi itirdiyinə sonra qayıdacağıq. Azərbaycanda korrupsiya ocaqlarına keçməzdən öncə bu ifadənin anatomiyasına ötəri nəzər yetirək.

Korrupsiya – dövlət qulluqçusunun vəzifəsindən və səlahiyyətlərindən sui-istifadə etmək iqtisadi cinayətkarlıq törətməsi, dövlətin maliyyə vəsaitlərini oğurlamasıdı. Bəzi ekspertlər korrupsiya anlayışına məmurun aldığı rüşvəti də aid eləyirlər. Məsələn, qanunla tənzimlənən biznesə lisenziyanı pulla satan məmur vətəndaşın cibinə girməklə korrupsiyaya yol vermiş sayılır.

Ancaq biz bu araşdırmamızda belə «xırda» korrupsiya ocaqlarının hədəf seçməmişik, çünki büdcənin onurğası sayılan vergi və gömrük sistemində, eyni zamanda özəlləşdirmə sferasında, təhsil və səhiyyədə formalaşan korrupsiya şəbəkəsinin cəmiyyətə vurduğu zərər elə rəqəmlərlə ölçülür ki, vətəndaşın cibindən oğurlanan məbləğ onun yanında dənizdə damlaya bənzəyir.

Azərbaycanın korrupsiya ocaqları

Onlar kifayət qədər çoxdu. Biz üçünü seçmişik: gömrük-vergi sistemi və özəlləşdirmə sferası.

Azərbaycanda gömrük sisteminin özəlliklərinə bələd olanlar bilirlər ki, ölkənin sərhədindən bircə malı da bir qəpiksiz ora-bura keçirmək mümkün deyil. Üstəlik nəzərə alsaq ki, qonşu dövlətlərlə sərhədlərimizdə gömrük nəzarətindən kənar 50-dən artıq qaçaqmalçılıq yuvası var, onda hər il milyonlarla dolların büdcəyə yox, ayrı-ayrı adamların cibinə axdığına şübhə qalmır.

Konkret faktlara diqqət yetirək. «Eceqodnaə statistika Belorusii 2002» məcmuəsində Belorusdan Azərbaycana 2001-ci il üçün ixrac məhsulunun dəyəri 6,8

milyon dollar göstərilib. Bizim statistikadasa həmin ölkədən idxalın məbləği 6,5 milyon dollar «hesablanır». Ortalıqda qalan 300 min dolların taleyi barədə heç bir kağızda məlumat yoxdu.

Başqa bir fakt. Hələ 2000-ci ildə iqtisadi-professor Nazim İmanov əldə elədiyi gömrük rəsmiləşdirilməsi sənədləri əsasında hər il siqaret idxalından yayınmalar ucbatından büdcəyə 100 milyon dollar zərər dəydiyini sübut etmişdi. N.İmanov bizimlə söhbətində bildirdi ki, növbəti tədqiqatlar nəticəsində ölkəyə gətirilən qida məhsullarının 65-70 faizinin sənədləşdirilmədiyi də sübuta yetirilir. Bu faktı bizim araşdırmalar da təsdiqlədi. Belə ki, gömrük statistikasında 2002-ci ildə ölkəmizə 80 min ton şəkər tozu idxal olduğu barədə məlumat var. Halbuki adambaşına istehlak normativlərinə görə, hər şəxsin həmin əmtəəyə aylıq tələbatı 1,5, illik tələbatısa 18 kiloqram təşkil edir. Bu rəqəmi ölkə əhalisinin sayına (hətta xaricdə yaşaması ehtimal olunan bir milyon nəfərdən çox soydaşımızı hesaba almadan) vursaq, onda ailələrin və son vaxtlar sürətlə inkişaf etməkdə olan qənnadı sənayesinin şəkər və şəkər tozuna illik ehtiyacı 200 min tona catır.

Beləliklə, qida məhsullarının 65-70 faizinin «qara kanallar»la ölkəmizə yol tapması ilə bağlı araşdırmaların nəticələrini real saysaq, eyni zamanda gömrükdə orta vergi yükünü təxminən 20 faiz (Azərbaycanda ixrac vergisi tətbiq olunmadığından sözbət yalnız idxal mallarından gedir) qəbul etsək, yalnız kiçik mal qrupları üzrə gömrükdən itkilərimizi hesablamaq xeyli asanlaşır. Ötən il qida məhsullarının idxalda payı təxminən 22-23 faiz və ya 350 milyon dollar olub. Bu isə o deməkdir ki, ərzaq məhsulları qaçaqmalçılığından büdcə ildə 50 milyon dollara qədər itirir. Qısası, hər il təkcə qida malları və tütündən 150 milyon dolların şəxsi ciblərə axdığı göz qabağındadı.

Vergi sisteminə gəldikdə, burdakı itkilər də kifayət qədər böyükdü. Rəsmi statistikanın məlumatına görə, hazırda özəl sektorun Ümumi Daxili Məhsulda (ÜDM) payı 73 faizi ötdüyü halda, Vergilər Nazirliyinin xəttilə daxilolmalarda həmin sferanın seçkisi vur-tut 38 faizdi. Hesabmalarımız göstərir ki, özəl sektorun ÜDM istehsaldakı payında işgüzar dairələrin vergi ödənişlərinin xüsusi çəkisi 10 faizi ötmür. Xatırladaq ki, aqrar sektor vergilərdən tam azad olunduğundan bu sferanın ÜMD-dəki payını nəzərə almamışıq. Azərbaycanda orta vergi yükünün 20 faizi ötdüyünü nəzərə alsaq, görərik ki, özəl sektordan vergi daxilolmaları ötən ilki tək 300 milyon dollar yox, azı 600 milyon dollar olmalıdı. Biz 3 mln. dollarlıq vergi borcunun 150 dollar rüşvətə silinməsinin şəxsən şahidi olanların söhbətlərini az eşitməmişik.

Korrupsiya özəlləşdirmə prosesində də geniş vürsət alıb. Ən iri miqyaslı koorupsiya dövlət proqramı çərçivəsində gedən özəlləşdirmədə baş verib. 1997-ci ildə əsas fondların yenidən qiymətləndirilməsinə görə özəlləşdirilməsi gözlənən bütün əmlakın ümumi dəyəri təqribən 38,4 trilyon (9,1milyard dollar) manat olub. Bunun 70 faizi (26,88 trilyon manat və ya 6,4 milyard dollar) çeklə, 30 faizi (11,5 trilyon manat və ya 2,7 milyard dollar) pulla özəlləşdirilməli idi. Artıq kiçik özəlləşdirmə tam başa çatıb, orta və iri müəssisələrin isə 50 faizə qədəri səhmdar cəmiyyətə çevrilib. Ümumilikdə 1996-2002-ci illərdə özəlləşdirmədən dövlət büdgəsinə cəmi 701,4 milyard manat (145 milyon dollar) vəsait daxil olub.

Özəlləşdirmə Qanunsuzluqlarını Araşdıran İctimai Komissiyanın üzvü iqtisadçı-ekspert Azər Mehtiyevin dediyinə görə, özəlləşdirməyə tətbiq edilən mexanizm korrupsiyaya şərait yaradan üsullarla zəngindi. Müəssisələrin 70 faizlik payı çeklə satılır, 30 faizinəsə əhəmiyyət vermir. Bunun nəticəsidi ki, ötən ilin sonunadək səhmdar cəmiyyətə çevrilən 1500-ə qədər orta və iri ölçülü müəssisədən 1200-nün 30 faizlik səhmi pullu hərraclarda satılmayıb. Ekspert bildirir ki, özəlləşdirmədə «üçdə bir» prinsipi korrupsiyaya yol açan başlıca mexanizm olub. Bu prinsipin mahiyyəti isə belədir: müəssisələrin real qiymətinin üçdə biri ödənilib, üçdə biri rüşvət kimi alınıb, yerdə qalan üçdə bir hissəsi həmin rüşvət müqabilində yeni sahibkarlara peşkəş

edilib. Nəticədə həmin dövrdə özəlləşdirmədən büdcəyə 450 milyon dollar əvəzinə 145 milyon dolları dollaradək vəsait daxil olub.

Bu, korrupsiya nəticəsində özəlləşdirmədən itkilərimizin heç də tam məbləği deyil. Xatırlayırsınızsa, 1999-cu ildə 994 min opsion (əcnəbilərin Azərbaycandakı çek özəlləşdirməsində iştirakını təmin etmək üçün buraxılan qiymətli kağız) yoxa çıxdı. Həmin vaxt bir opsionun minimal qiyməti 60 min manat idi. Bu da bütövlükdə 14 milyon dollar deməkdi. Başqa sözlə, özəlləşdirilən əmlakın qiymətləriylə manipulyasiya və oğurlanmış opsionlar sayəsində 1996-2002-ci illərdə 300 milyon dollardan çox və ya hər il orta hesabla 45 milyon dollar korrupsiyanın yeminə çevrilib.

Beləliklə, təkcə üç sahədə baş alıb gedən korrupsiya halları hesabına hər il ən azı 500 milyon dollar məmurların cibinə axır. Amma nəzərə alın ki, nə həmin sahələrə korrupsiyadan dəyən itkilərin tam həçmidi, nə də araşdırma obyektinə çevirdiyimiz qurumlar Azərbaycandakı korrupsiya ocaqlarının bütöv siyahısıdı.

Bu qurumların təpədən-dırnağa korrupsiyalaşdığını təsdiqləyən çox ciddi bir fakt da var. Hər üç qurumda orta hesabla 1500 nəfər çalışır. Və hamısında işçilərə «qara maaş» cədvəliylə minimum 250-300 dollar, maksimum 1000-1500 dollar əməkhaqqı verilir. Bu, ildə təxminən nə qədər eliyir?  …. Əgər korrupsiya yoxdursa, həmin pullar haradan alınır?

Korrupsiyanın əllə toxunula bilməyən zərəri

Qanunsuz yolla qazanılmış pullar adətən ölkədən kənara çıxarılan və ya daşınmaz əmlaka qoyulur. Korrupsiya bazar rəqabətində qeyri-sağlam mühitin yaranmasında böyük rol oynayır. Təkcə vergi, gömrük və özəlləşdirmə sferasında hər il təxminən 500 milyon dolların cibinə yox, büdcəyə yonəldilməsi Azərbaycanın bu gün üzləşdiyi çətin gün-güzəranı yaxşılaşdırmaq, iqtisadi durumu dirçəltmək üçün geniş imkanlar yaradardı, cəmiyyətin ən ağrılı yeri olan işsizlik probleminə əncam çəkilərdi.

Düzdü,  bir iş yerinin, açılması üçün nə qədər vəsaitin lazm olduğu barədə dəqiq statistika yoxdur. Ancaq Məşğulluq İdarəsi 1998-2002-ci illərdə 3000-yaxın iş yeri açıb və buna təxminən 15 miylard manata (3 milyon dollar) yaxın pul xərcləyib. Bu göstərici əsasında belə bir hesablama apara bilərik: bir iş yeri təxminən 1000 dollara başa gəlibsə, deməli, hər il məmurların cibinə axan 500 milyon dollara 500 min iş yeri açmaq olar. Və yaxud bu məbləğə 1,2 milyon təqaüdcümüzün hər birinin təqaüdünü ayda 35 dollar artmaq və ya 320 min müəllimin orta aylıq maaşını 120 dollara çatdırmaq mümkündü.

Korrupsiyanın nəticələrinə əllə toxuna bilmədiyimizdəndi ki, onu ən ümdə problem kimi qavramağa çətinlik çəkirik. Halbuki bu iqtisad cinayətkarlığın nəticələri hər bir Azərbaycan vətəndaşını addımba-addım izləyir.